

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 47 (21.457)

11 mart 2016-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Martın 10-da Azərbaycanın paytaxtında "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumunun rəsmi açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, bir sıra ölkələrin dövlət və hökumət başçıları Forumda iştirak ediblər.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda bu dəfə münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya, multikulturalizm və inteqrasiya məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edilir. Bundan başqa, enerji və qlobal idarəçiliyin perspektivləri ilə bağlı məsələlər də Forumun gündəliyinə daxildir.

Dövlətimizin başçısı tədbirdə nitq söyləyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Gürcüstanın Prezidenti Giorgi Marqvelaşvili ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Albaniya Respublikasının Prezidenti Buyar Nişani ilə görüşüb.




## C.M.Muxtərovun Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cəfər Məhərrəm oğlu Muxtərov Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 10 mart 2016-cı il*

## Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilib

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 5 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı"nın muxtar respublikada uğurlu icrasına görə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilmişdir.***



Bu münasibətlə martın 10-da Naxçıvan Şahmat Mərkəzində keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanını oxumuş və Fəxri Fərmanı Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərova təqdim etmişdir.

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Vüqar Səfərov demişdir ki, "2009-2014-cü illərdə Azərbaycanda şahmatın inkişaf etdirilməsi Dövlət Proqramı" Naxçıvan Muxtar Respublikasında uğurla icra olunmuş, şahmatın kütləviliyinin təmin olunması, şahmat məktəblərinin şəbəkəsinin genişləndirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi və peşəkar mütəxəssislərin formalaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Belə ki, 2009-cu ildə ölkə başçısının Naxçıvan Muxtar Respublikasına səfəri zamanı Naxçıvan şəhərində Şahmat Mərkəzinin açılışı olmuş, 2011-ci ildə Ordubad, 2012-ci ildə Sədərək, 2013-cü ildə Babək, 2015-ci ildə isə Kəngərli rayonlarında Uşaq-gənclər şahmat məktəbləri istifadəyə verilmişdir. Bu gün muxtar respublikanın bütün şəhər və rayonlarında beynəlxalq standartlara cavab verən şahmat məktəbləri fəaliyyət göstərir. Məktəblərin hər biri müasir kompüter dəstləri, elektron və nümayiş lövhələri, dərslik, elektron şahmat proqramları ilə təmin olunmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərində şahmatın tədrisinə başlanılmış, şahmat siniflərində əyani vəsaitlər qoyulmuşdur. Bütün bunlar gənclərin şahmata marağını artırmış, istedadlı şahmatçılar nəsli yetişmişdir. 2009-2014-cü illərdə Uşaq-gənclər şahmat məktəblərinin 166 yetirməsi 27 respublika səviyyəli yarışda iştirak edərək 11 medal qazanmışdır. Həmçinin şahmatçılarımız Türkiyə, İran, Rusiya, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri, Serbiya, Yunanıstan, Danimarka, İspaniya, Norveç, Monteneqro, Xorvatiya və Almaniyada keçirilən yarışlarda muxtar respublikanı uğurla təmsil edərək 6 medal qazanmış, 1 şahmatçı isə məktəblilər arasında Avropa çempionatının qızıl medalına layiq görülmüşdür.

Qeyd olunmuşdur ki, müasir maddi-texniki baza muxtar respublikanın müxtəlif səviyyəli şahmat yarışlarına ev sahibliyi etməsinə də şərait yaratmışdır. Ötən dövrdə Naxçıvanda ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş 5 beynəlxalq şahmat festivalı, 13 beynəlxalq turnir, 19 muxtar respublika birinciliyi, 57 tempo turnir, 20 blits turnir keçirilmişdir. 20 ölkədən onlarla tanınmış şahmatçının iştirak etdiyi beynəlxalq festivallarda muxtar respublikadan 295 şahmatçı iştirak etmiş, onlardan 22-si müxtəlif mükafatlara layiq görülmüşdür. 2013-cü ildə keçirilən "Naxçıvan-Open" Beynəlxalq Şahmat Festivalı isə FİDE-nin ən yaxşı təşkil olunmuş turnirləri siyahısına daxil edilmişdir. 2009-2014-cü illərdə Naxçıvan Muxtar Respublikasında 1 qrossmeyster, 1 beynəlxalq usta, 2 FİDE ustası, 1 beynəlxalq hakim yetişmişdir. Hazırda muxtar respublikada 100-dən artıq şahmatçının beynəlxalq reytingi vardır. 2014-cü ildə Azərbaycanda keçirilən müsabiqədə Naxçıvan Şahmat Mərkəzi "İlin ən yaxşı Şahmat Məktəbi" adını almış, 2 şahmatçının adı Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı"na yazılaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə, 2 nəfər "Əməkdar bədən tərbiyəsi və idman xadimi" adına layiq görülmüş, 1şahmatçı isə "Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə" nişanı ilə təltif edilmişdir.

Şahmat Federasiyasının sədri muxtar respublikada şahmatın inkişafına göstərdiyi diqqətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə şahmatçılar adından minnətdarlığını bildirmişdir.

Şahmat Federasiyasının sədr müavini, Naxçıvan Şahmat Mərkəzinin direktoru, beynəlxalq dərəcəli hakim Emin Hacıyev və mərkəzin müəllimi, beynəlxalq qrossmeyster Urfan Sevdimalıyev çıxışlarında Naxçıvan Şahmat Federasiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Fəxri Fərmanı ilə təltif edilməsini muxtar respublikada şahmatçılara göstərilən dövlət qayğısının daha bir ifadəsi olduğunu vurğulamış, yaradılan şəraitdən bundan sonra da layiqincə istifadə edəcəklərini bildirmişlər.

**"Şərq qapısı"**

## İqtisadiyyat Nazirliyində Apellyasiya Şurasının ilk iclası keçirilmişdir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 fevral 2016-cı il tarixli "Naxçıvan Muxtar Respublikasında Apellyasiya şuralarının yaradılması haqqında" Fərmanına uyğun olaraq, İqtisadiyyat Nazirliyində Apellyasiya Şurası yaradılmışdır. Martın 9-da şuranın ilk iclası keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov iclası giriş sözü ilə açaraq bildirmişdir ki, Apellyasiya Şurası sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslər tərəfindən özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı nazirliyin aparatının və onun struktur qurumlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlər istisna olmaqla) verilmiş təkrar şikayətlərə baxan və ictimai əsaslarla fəaliyyət göstərən kollegial orqandır.

Nazir qeyd etmişdir ki, iqtisadiyyat nazirinin müavininin rəhbərlik etdiyi Apellyasiya Şurasının üzvlüyünə İqtisadi təhlil və proqnozlaşdırma, Sahibkarlığın inkişafı, İnvestisiyaların təşviqi və ixraca dəstək şöbələri və Hüquq sektoru daxil edilmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, Apellyasiya Şurasının sədri Anar Əhmədov Apellyasiya Şurasının mahiyyəti, vəzifə və hüquqları, fəaliyyətinin təşkili, iclasların keçirilməsi qaydası və digər məsələlər barədə ətraflı çıxış etmişdir.

Qeyd olunmuşdur ki, sahibkarlar sahibkarlıq fəaliyyəti ilə bağlı şikayətlərini nazirliyin Apellyasiya Şurasına göndərə bilərlər. Şikayətlər dərhal qeydiyyata alınır və araşdırılması üçün nazirliyin Apellyasiya Şurasına təqdim olunur, qanunvericiliyə uyğun olaraq baxılır və nəticəsi barədə sahibkara məlumat verilir. Sahibkarların şikayətlərinə daha həssas yanaşılması, şəffaf və obyektiv baxılması, hüquqlarının və qanunla qorunan maraqlarının daha etibarlı müdafiəsi məqsədilə yaradılmış Apellyasiya Şurası müraciət prosedurunun sadələşdirilməsi, bu sahədə vaxt itkisinin qarşısının alınması və operativliyin təmin olmasına xidmət edir.

İclasda şuranın fəaliyyətinin təşkili istiqamətində görülmüş işlər, şura tərəfindən sahibkarların şikayətlərinin araşdırılmasının çevikliyinin təmin edilməsi və sənəd təminatı işlərinin təşkili məsələləri müzakirə olunmuş, əsassız yazışmalara yol verilməməsi və işin səmərəli təşkili üçün Apellyasiya Şurasında baxılacaq şikayətlərin məzmun üzrə təsnifləşdirilməsi meyarlarının müəyyən olunması qərara alınmışdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Duzdağ Fizioterapiya Mərkəzinə müraciət edənlərin sayı artır

***Naxçıvandakı Duzdağ Fizioterapiya Mərkəzinə ötən il 4000-ə yaxın müraciət olub, müraciət edənlərin 228 nəfərini xarici ölkə vətəndaşları təşkil edib.***

Bu barədə qəzetimizə mərkəzin baş həkimi Ruslan Süleymanov məlumat verib. Məlumatda o da qeyd edilib ki, ötən il mərkəzdə 139 nəfər Rusiya, 42 nəfər Qazaxıstan, 23 nəfər Türkiyə, 7 nəfər Gürcüstan, 5 nəfər İran İslam Respublikası, 5 nəfər Ukrayna, 2 nəfər Latviya, 4 nəfər Kanada vətəndaşı müalicə alıb. Naxçıvan Muxtar Respublikasından isə mərkəzdə 461 nəfər müalicə kursu keçib. Bundan başqa, Azərbaycanın müxtəlif bölgələrindən olan xəstələr buraya müalicəyə gəliblər.

Qeyd edək ki, yer altındakı müalicə mərkəzi girişdən 300 metr məsafədə, 110 metr dərinlikdə yerləşir. Burada iki qadın, iki kişi, bir uşaq palatası və iki istirahət foyesi fəaliyyət göstərir. Yer altındakı duz dağının qalınlığı isə 8,2 metrdir. Havanın temperaturu 18-20 dərəcə, nisbi rütubət isə 24-50 faiz arasında dəyişir. Mərkəzdə duz layları arasında oksigen havanın 20 faizini təşkil edir ki, bu da ağciyər xəstəliklərindən əziyyət çəkənlərə təbiətin bəxş etdiyi ən gözəl dərmandır. Duzun tərkibindəki zəngin minerallar və kimyəvi elementlər də orqanizmə müsbət təsir göstərir. Oksigen və zəngin duz minerallarının yaratdığı hava ağciyər xəstəlikləri – bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində müstəsna rola malikdir. Burada istənilən adam müalicə ala bilər. Yalnız müalicə kursları fərqlidir. Uşaqlar 12-15, böyüklər isə 14-18 gün burada qalmaqla müalicə almış olurlar. Mərkəzdə ilin istənilən fəslində müalicə almaq olar. Səhiyyə ocağında spleoterapiya Ukraynanın Ujqorod xəstəxanasının metodik göstərişlərinə uyğun aparılır. Xəstələr əvvəlcə 2-3 gün xəstəxana ərazisində adaptasiya olunurlar. Bundan sonra axşam saat 18[00]-dən səhər saat 8[00]-dək böyüklər 20-24 seans, uşaqlar isə 14-18 seans yeraltı şöbədə olurlar. Müalicə başa çatdıqdan sonra böyüklərdə 65-70 faiz, uşaqlarda isə 80-85 faiz yaxşılaşma qeydə alınır.

**Səbuhi HÜSEYNOV**

# Görkəmli şəxsiyyətlərin yubileylərinin qeyd olunması mədəni irsə qayğının parlaq təzahürləridir

*Ümummilli liderimiz Heydər Əliyev vətənin və xalqın taleyində, o cümlədən ədəbi-mədəni inkişafımızda mühüm xidmətlər göstərmiş böyük şəxsiyyətlərin yubileylərini keçirməyi, fəaliyyətlərini layiqincə qiymətləndirməyi vacib vəzifə sayaraq demişdir:* ***"Yubileyin keçirilməsi bir tərəfdən, yubilyarın xalq, ölkə, dünya qarşısında xidmətlərini bir daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən, müasir nəslin ona bəslədiyi hörmət və ehtiramı bildirmək deməkdir".***

Bu gün ölkəmizdə ulu öndərin siyasi kursu bütün sahələrdə uğurla davam etdirilir, o cümlədən ədəbi-mədəni inkişafın daha da yüksəlişi, eləcə də klassik irsə ardıcıl ehtiram və qayğı göstərilməsi istiqamətində mühüm işlər görülür.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün digər sahələrlə yanaşı, ədəbiyyata, mədəniyyətə də böyük qayğı göstərilir. Qədim Naxçıvan son iyirmi il ərzində hərtərəfli inkişaf yolu keçmiş, ədəbi-mədəni mühitin yeni yüksəlişinə nail olmuşdur. Bu gün Naxçıvan ədəbi-mədəni mühiti Şərq və Qərb sivilizasiyalarının üzvi sintezini özündə təcəssüm etdirir. Naxçıvanda milli-mədəni ənənələr sədaqətlə qorunur, eyni zamanda müasir dünya mədəniyyətinə inteqrasiya da sağlam əsaslar zəminində həyata keçirilir. Naxçıvan Muxtar Respublikasında ədəbi-mədəni həyatın müxtəlif sahələrinin dünəni və bu gününü əks etdirən fundamental, ensiklopedik nəşrlərin hazırlanması, çoxsaylı tarixi və mədəniyyət abidələrinin ilk dəfə pasportlaşdırılması, 2012-ci ilin "Milli dəyərlər ili" kimi qeyd olunması, xalq yaradıcılığı günlərinin keçirilməsi, mədəni-mənəvi sərvətlərimizin hərtərəfli şəkildə üzə çıxarılması, tanıdılması, qorunması, öyrənilməsi sahəsində görülən çoxsaxəli işlər hər bir vətəndaşın qəlbində qürur və minnətdarlıq duyğusu oyadır.

Ədəbiyyat və mədəniyyətimizin görkəmli simalarının yaradıcılığına yüksək qiymət verilməsi, onların yubileylərinin qeyd olunması, xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin tədqiqi və təbliği işinin daha da yaxşılaşdırılması istiqamətində də muxtar respublikamızda çoxsaylı tədbirlər həyata keçirilir. Belə tədbirlər təkcə həmin şəxsiyyətlərin xidmətlərinə diqqət və ehtiramın ifadəsi olmaqla məhdudlaşmır, eyni zamanda humanitar siyasətin üzvi tərkib hissəsi, Azərbaycançılıq ideologiyasının vacib komponentlərindən biri kimi böyük dəyər qazanır.

Bu baxımdan müxtəlif vaxtlarda Məhəmməd Füzuli, Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Mir Cəlal, Səməd Vurğun, İlyas Əfəndiyev və digər görkəmli ədiblərin, həmçinin "Kitabi-Dədə Qorqud" dastanının, Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operasının, "Molla Nəsrəddin" jurnalının yaranmasının yubileylərinin muxtar respublikamızda yüksək səviyyədə keçirilməsi milli-mədəni irsə münasibətdə Heydər Əliyev siyasətinə sədaqətin ifadəsidir. Təkcə elə ötən il "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd olunması barədə ölkə Prezidentinin Sərəncamı ilə əlaqədar muxtar respublikamızda keçirilən müxtəlif tədbirlər, o cümlədən beynəlxalq simpozium, müxtəlif elmi konfranslar, dəyirmi masalar, Naxçıvanşünaslıq Mərkəzində müntəzəm təşkil olunan açıq dərslər, kütləvi informasiya vasitələrində verilən materiallar və sair bu baxımdan bütöv bir sistem təşkil edir.

Minnətdarlıqla qeyd edirik ki, son illərdə muxtar respublikamızda qədim diyarımızın yetirməsi olan Məhəmməd ağa Şahtaxtlı, Məhəmməd Tağı Sidqi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Bəhruz Kəngərli, Əziz Şərif, Abbas Zamanov, İslam Səfərli, Məmməd Araz və digər görkəmli şəxsiyyətlərin yubileyləri ilə əlaqədar həyata keçirilən tədbirlər, onların xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin nəşri və tədqiqi istiqamətində görülən fundamental işlər elmə, təhsilə, ədəbiyyata, mədəniyyətə ardıcıl və möhtəşəm dövlət qayğısı sayəsində gerçəkləşmişdir. Bu tədbirlər ardıcıl, mütəmadi və sistemli xarakter daşımaqla çoxsaxəli məqsəd və vəzifələri əhatə edir. Bəzi məqamlara nəzər salaq.

Azərbaycan realist rəssamlıq məktəbinin banisi, məşhur fırça ustası Bəhruz Kəngərli qısa ömür sürsə də, mədəniyyət tariximizdə silinməz izlər qoymuşdur. Onun xidmətlərini layiqincə qiymətləndirmək, bugünkü və gələcək nəsillərə çatdırmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 15 fevral 2001-ci il tarixdə "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Sərgi Salonuna görkəmli sənətkarın adı verilmiş, onun əsərlərinin toplanılaraq muxtar respublikanın Dövlət Rəsm Qalereyasında qorunması, həmin nümunələrdən ibarət kitab-albomun hazırlanması kimi mühüm vəzifələr qarşıya qoyulmuş və yüksək səviyyədə icra edilmişdir. Ali Məclis Sədrinin "Görkəmli rəssam Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında" 12 yanvar 2012-ci il tarixli Sərəncamına əsasən təsdiqlənmiş tədbirlər planında istedadlı sənətkara həsr olunmuş elmi konfransın keçirilməsi, onun yaradıcılığı haqqında yeni tədqiqat işlərinin aparılması, kütləvi informasiya vasitələrində materialların verilməsi, əsərlərinin tam külliyyatından ibarət albom-kataloqun hazırlanması, Bəhruz Kəngərli Muzeyinin yeni eksponatlarla zənginləşdirilməsi kimi vacib vəzifələr müəyyənləşdirilmiş və onların icrası üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərin davamı kimi Ali Məclisin Sədri "Rəssamlar Parkının yaradılması haqqında" 14 noyabr 2015-ci il tarixdə yeni bir Sərəncam vermişdir. Sərəncamda Naxçıvan şəhərində görkəmli rəssamın heykəlinin qoyulması, həmin ərazinin Bəhruz Kəngərli adına Rəssamlar Parkı adlandırılması qərara alınmışdır. Göründüyü kimi, təkcə elə Bəhruz Kəngərli yaradıcılığına göstərilən diqqət və bu yöndə həyata keçirilən tədbirlər muxtar respublikamızda klassik ədəbi-mədəni irsə ardıcıl və hərtərəfli qayğının əyani təcəssümüdür. Eyni sözləri digər məşhur klassiklərə münasibət haqqında da demək olar.

Ali Məclis Sədrinin "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 150 illik yubileyinin keçirilməsi və xatirəsinin əbədiləşdirilməsi haqqında" 11 mart 2004-cü il tarixli Sərəncamı da bu baxımdan böyük dəyərə malikdir. Azərbaycanda yeni maarifçilik hərəkatının və ədəbi düşüncənin inkişafında mühüm xidmətlər göstərmiş M.T.Sidqinin yubileyi ilə əlaqədar Naxçıvan Dövlət Kukla Teatrına onun adı verilmiş, ədibin əsərlərinin toplanılması, nəşri, tədqiqi, təbliği istiqamətində geniş tədbirlər həyata keçirilmişdir. Onun bir sıra əsərlərinin, həmçinin fəaliyyətinə dair arxiv materiallarının ilk dəfə nəşri, həyat və yaradıcılığına aid kitabların çapı, keçirilən elmi konfranslar, kütləvi informasiya vasitələrində verilən materiallar görkəmli şəxsiyyəti çağdaş nəsillərə daha yaxından tanıtdırmışdır. Məşhur pedaqoq və ədib M.T.Sidqinin yaradıcılığının daha geniş, davamlı tədqiqi və təbliği zərurətini nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri bu məqsədlə daha iki mühüm sərəncam vermişdir: "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında" 20 avqust 2014-cü il tarixli və "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev-muzeyinin yaradılması haqqında" 17 sentyabr 2014-cü il tarixli sərəncamlar. Bu sərəncamlara uyğun olaraq M.T.Sidqinin zəngin, çoxsaxəli yaradıcılığı, səmərəli fəaliyyəti daha geniş öyrənilmiş və təbliğ edilmiş, ədibə həsr olunan elmi konfranslar keçirilmiş, sərgilər hazırlanmış, "Naxçıvan" jurnalının ayrıca sayı, eləcə də məqalələr toplusu çapdan çıxmışdır. Ordubad şəhərində M.T.Sidqinin ev-muzeyi yaradılmışdır. 25 avqust 2015-ci ildə həmin muzeyin açılış mərasimində M.T.Sidqi irsini böyük bir xəzinəyə bənzədən Ali Məclis Sədrinin aşağıdakı sözləri təkcə bu məşhur maarifçiyə deyil, ümumən, bütün klassiklərə, ədəbi-mədəni irsə böyük ehtiramın ifadəsi, onların irsini öyrənməyin vacibliyi baxımından xüsusi önəm daşıyır: ***"Bu xəzinədən gəncliyin yetişməsində məqsədyönlü istifadə etmək təhsil müəssisələrinin və pedaqoji kollektivlərin borcudur. Bu gün Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyinin istifadəyə verilməsi də onun zəngin pedaqoji və ədəbi irsinin yaşadılması, bugünkü və gələcək nəsillərə çatdırılması istiqamətində atılan növbəti addımdır".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Görkəmli ictimai xadim, publisist və maarifçi Məhəmməd ağa Şahtaxtlının anadan olmasının 160 illiyinin qeyd olunması və xatirəsinin əbədiləşdirilməsi haqqında" 27 fevral 2006-cı il tarixli Sərəncamı isə çoxsaxəli fəaliyyəti lazımınca öyrənilməmiş digər bir dahiyə layiq olduğu qiymətin verilməsi, gərəkli diqqətin göstərilməsi kimi vacib məqsədə xidmət edir. Sərəncama uyğun olaraq Naxçıvan şəhərindəki Kitab evinə M.Şahtaxtlının adı verilmiş, elm, təhsil, mədəniyyət ocaqlarında konfranslar keçirilmiş, sərgilər təşkil olunmuş, mütəfəkkir ədibin əsərləri toplanılaraq kitab halında nəşr olunmuş, "Naxçıvan" jurnalının bir sayı və məqalələr toplusu nəşr edilmişdir. Ali Məclis Sədrinin "Şahtaxtinskilər muzeyinin yaradılması haqqında" 9 fevral 2010-cu il tarixli Sərəncamı əsasında Kəngərli rayonunun Şahtaxtı kəndində muzey yaradılmışdır. Bir böyük nəslə həsr olunması ilə bu muzey dünyada nadir mədəniyyət ocaqlarından biridir."Görkəmli dövlət xadimi və diplomat Behbud ağa Şahtaxtinskinin 130 illik yubileyinin keçirilməsi haqqında" 21 fevral 2011-ci il tarixli Sərəncamın işığında görülən işlər də bu məşhur nəslin tanınmış simalarının xatirəsinə ehtiramı ifadə edir.

"İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsi haqqında" 18 yanvar 2013-cü il tarixli Sərəncam isə XX əsr ədəbiyyatımızın tanınmış nümayəndəsinin xatirəsinin yad olunması, yaradıcılığının yeni təfəkkür işığında əhatəli tədqiqi zərurətini diqqət mərkəzinə çəkmişdir. Çoxşaxəli tədbirlərlə yanaşı, istedadlı sənətkarın "Göz həkimi" pyesinin C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulması da rəğbətlə qarşılanmışdır.

2013-cü ildə XX əsr Azərbaycan poeziyasının ən məşhur simalarından sayılan Məmməd Arazın da yubileyi keçirilmiş, bu məqsədlə Ali Məclisin Sədri iki mühüm sərəncam imzalamışdır. "Xalq şairi Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında" 8 iyun 2013-cü il tarixli və "Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında" 28 iyun 2013-cü il tarixli həmin sərəncamlara əsasən görkəmli sənətkarın yubileyi geniş şəkildə qeyd olunmuş, Naxçıvan şəhərindəki küçələrdən birinə onun adı verilmiş, Şahbuz rayonunun Nursu kəndində ev-muzeyi yaradılmışdır.

"Görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyinin keçirilməsi haqqında" 26 yanvar 2015-ci il tarixli Sərəncam isə Azərbaycan ədəbiyyatşünaslığının inkişafında, ədəbiyyatımızın tədqiqi və təbliğində böyük xidmətləri olan ədibin çoxsaxəli, məhsuldar fəaliyyətinə ehtiramın ifadəsidir.

"Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında" 15 fevral 2016-cı il tarixli Sərəncam ədəbiyyat, mətbuat, mədəniyyət tariximizdə böyük xidmətləri olan məşhur ziyalının xatirəsinin yad edilməsi, həyat və fəaliyyətinin hərtərəfli şəkildə tədqiqi və təbliği məsələlərini diqqət mərkəzinə çəkmişdir.

Ümumiyyətlə, muxtar respublikamızda görkəmli elm, ədəbiyyat, mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi, xatirələrinin əbədiləşdirilməsi, onların yaradıcılıqlarının tədqiqi, nəşri və təbliği istiqamətində görülmüş işlər ardıcıl, müntəzəm və sistematik xarakter daşıyır. M.Şahtaxtlı, M.T.Sidqi, C.Məmmədquluzadə, H.Cavid, M.S.Ordubadi, B.Kəngərli, Ə.Şərif, A.Zamanov, İ.Səfərli, M.Araz və digərlərinin yubileyləri ilə əlaqədar onların əsərlərinin çapı, barələrində araşdırmaların nəticələrini əks etdirən monoqrafiyaların, məqalələr toplularının nəşri, "Naxçıvan" jurnalının müxtəlif klassiklərə həsr olunmuş xüsusi buraxılışlarının hazırlanması, keçirilən elmi konfranslar və sair bu baxımdan böyük mənaya və dəyərə malikdir. Son illərdə muxtar respublikamızda M.Şahtaxtlı, M.T.Sidqi, C.Məmmədquluzadə, H.Cavid və digərlərinə həsr olunmuş dissertasiyaların müdafiəsi, E.Sultanov, M.S.Ordubadi, M.C.Cəfərov, İ.Səfərli, M.Araz və digərlərinin yaradıcılığı barədə yeni tədqiqatların aparılması məhz qeyd olunan sərəncamların qarşıya qoyduğu vəzifələrə uyğun olaraq yaradılmış şəraitin nəticəsidir.

Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bütün digər sahələrlə yanaşı, elmə, təhsilə, ədəbiyyata, mədəniyyətə ardıcıl və möhtəşəm qayğısının parlaq təzahürləridir.

**Hüseyn HƏŞİMLİ**
***filologiya üzrə elmlər doktoru, Əməkdar elm xadimi***

---

# *Serhan Aktoprak:* Bu gün muxtar respublikada miqrasiya sahəsində qabaqcıl təcrübə formalaşıb

***Xəbər verdiyimiz kimi, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Serhan Aktoprak martın 7-də Naxçıvan Muxtar Respublikasına səfər edib. Nümayəndəliyin rəhbəri ilə görüşərək səfər təəssüratları barədə söhbət etdik. O dedi:***



–Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri təyin edildikdən sonra ilk dəfədir ki, Naxçıvana gəlirəm. Gəlişimin bu günə təsadüf etməsinin digər bir səbəbi isə Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan Hökuməti ilə birgə hazırladığı və Avropa İttifaqının da maliyyə dəstəyi ilə həyata keçirilən "Azərbaycan miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi" layihəsidir. Həmin layihə çərçivəsində biz beynəlxalq mütəxəssislərin iştirakı ilə əlaqədar dövlət qurumlarının əməkdaşları üçün sənədlərin yoxlanılması üzrə seminarlar keçiririk. Məqsədimiz bilik və təcrübə mübadiləsi aparmaqdır.

Mən əvvəllər də bir neçə dəfə Naxçıvan Muxtar Respublikasında olmuşam. Budəfəki səfərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə görüşdüm. Səmimi qəbula görə Ali Məclisin Sədrinə minnətdarlığımı bildirdim. Beynəlxalq Miqrasiya Təşkilatı ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələrin inkişaf etdirilməsi üçün potensialın olduğunu, bu istiqamətdə səylərimi əsirgəməyəcəyimi qeyd etdim.

Muxtar respublikada bir neçə dövlət qurumlarında da görüşlər keçirdim. Görüşlərdə Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıq sahələrinin daha da genişləndirilməsini, əlaqələrin perspektivlərini müzakirə etdik. Çünki bu gün dünyada yeni tendensiyalar mövcuddur. Miqrasiya, iqlim dəyişikliyi, ekoloji problemlər kimi. Bütün bunlar müsbət təcrübə mübadiləsini zərurətə çevirir.

Bu gün Azərbaycan, necə deyərlər, artıq öyrənən ölkə deyil, öyrədən ölkədir. Bu mənada, biz işlərimizi təcrübə mübadiləsi çərçivəsində həyata keçiririk. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında əməkdaşlıq yüksək səviyyədə davam etdirilir, bu əməkdaşlığın inkişafına diqqət və qayğı göstərilir. Bu gün muxtar respublikada miqrasiya sahəsində qabaqcıl təcrübə formalaşıb. Biz bu təcrübəni öyrənirik.

Miqrasiya ölkədaxili və ölkələr arasında baş verən proses olduğuna görə hər iki halda bu prosesin tənzimlənməsində qarşılıqlı əməkdaşlıq, BMT-nin və müvafiq qurumların birgə fəaliyyəti zəruridir. Bu gün inkişaf edən Naxçıvan Muxtar Respublikası artıq miqrantlar üçün cazibədar regiona çevrilib. Son dövrlər özəl və dövlət sektorunda iş imkanlarının genişlənməsi də buna öz təsirini göstərir.

Təxminən 6 il bundan öncə mən muxtar respublikada olarkən Naxçıvan Dövlət Universitetinin tələbələrinə "Beynəlxalq miqrasiya hüququ", "Avropa və Azərbaycanın miqrasiya hüquqları" mövzularında mühazirələr oxudum. İlk gün və yekunda test sınağı keçirdim. Qısa zaman ərzində biliklərin artım səviyyəsi 174 faiz oldu. Bu, onu göstərir ki, naxçıvanlı gənclər öyrənməyə həvəslidirlər və onların çox ciddi elmi potensialı var. Ümumiyyətlə, muxtar respublikada dinamik, savadlı gənc nəsil yetişir. Onların yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. Gənclər bu imkanlardan faydalanaraq yaxşı kadr kimi yetişməyə cəhd göstərirlər, müxtəlif sahələrdə uğurlar əldə edirlər.

Biz Biznes Mərkəzində də olduq. Orada bildirildi ki, hazırda Biznes Mərkəzində muxtar respublikanın 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Əhalinin 107-si ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbatı tamamilə yerli istehsal hesabına ödənilir. Bu, çox böyük nailiyyətdir. İstehsal olunan məhsulları da nəzərdən keçirdim. Sözün həqiqi mənasında, mükəmməldir. Bütün bunlar muxtar respublikanın son illər ərzində də müsbət inkişaf templərini qoruduğunu göstərir.

**Rauf ƏLİYEV**

# Dövlət dəstəyinin göstərilməsi taxılçılığın inkişafına geniş imkanlar açır





***Ərzaq təhlükəsizliyinin təminatında taxılçılığın inkişafı mühüm əhəmiyyət daşıyır. Taxılçılıq əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlıq üçün qüvvəli və qaba yem tədarükündə mühüm rol oynayır. Ona görə də ölkəmizdə taxıl istehsalının həcminin artırılması qarşıya mühüm məsələ kimi qoyulmuş, bu sahənin inkişafını təmin edən fərman və sərəncamlar imzalanmış, taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə subsidiyaların ödənilməsinə başlanılmışdır.***

Strateji ərzaq məhsulu olan taxıla tələbatın Naxçıvan Muxtar Respublikasında daxili imkanlar hesabına ödənilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunan “2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın icrası taxılçılıq sahəsində də məhsul istehsalının artmasına səbəb olmuşdur. Ötən dövrdə muxtar respublikada məhsuldarlığın intensiv amillər hesabına artırılmasına xidmət edən tədbirlər həyata keçirilmişdir. “Araz” Elm-İstehsalat Birliyi tərəfindən muxtar respublikanın iqlim şəraitinə uyğun taxıl sortlarının müəyyənləşdirilməsi, torpaq mülkiyyətçiləri arasında maarifləndirmə işlərinin aparılması, mütərəqqi əkin və suvarma metodlarının tətbiqi bol məhsul istehsalına imkan verir.

Taxıl əkininin səmərəli aparılması və yüksək məhsuldarlığın əldə edilməsində meliorasiya-irriqasiya işlərinin mühüm rolu vardır. Buna görə də əkin sahələrində ardıcıl meliorativ tədbirlər görülür, şoranlaşmanın qarşısı alınır, rentabelli suvarma şəbəkələri qurulur. Son illər istifadəyə verilən yeni nasos stansiyaları və suvarma şəbəkələri hesabına torpaqların suvarma təminatı xeyli yaxşılaşmış, əkin sahələri genişləndirilmişdir. Ötən dövrdə “Azərbaycan” nasos stansiyasından Böyükdüz kəndinin ərazisini əhatə edən boru xətti çəkilmiş, Sədərək rayonunda nasos stansiyasının tikintisi, eləcə də Babək rayonunun Uzunoba Su Anbarının yenidən qurulması işləri başa çatdırılmışdır. Uzunoba Su Anbarından uzunluğu 40 kilometr olan boru xəttinin çəkilməsi hesabına Kəngərli rayonunda 4 min hektar, həmçinin Sədərək rayonunda tikilmiş nasos stansiyası hesabına 1500 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Həmçinin Babək və Culfa rayonlarının 2 min hektar torpaq sahəsini əhatə edən Vayxır sol sahil qapalı suvarma və drenaj şəbəkəsi tikilib istifadəyə verilmişdir.

Muxtar respublikada yeni emal müəssisələrinin, dəyirmanların işə salınması, taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə dövlət maliyyə dəstəyinin göstərilməsi bu sahəyə olan marağı daha da artırmışdır. Hazırda muxtar respublikada tutumu 27 min tonluq uzunmüddətli və 43,4 min tonluq qısamüddətli taxıl anbarları, 17 taxıl emalı müəssisəsi fəaliyyət göstərir. Bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində hər il muxtar respublikaya yeni kənd təsərrüfatı texnikaları gətirilərək lizinq yolu ilə torpaq mülkiyyətçilərinə satılır. Xüsusilə müasir kombaynlardan istifadə olunması məhsul tədarükünün mütəşəkkil qaydada təşkilinə imkan verir.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, 2015-ci ilin payızında cari ilin məhsulu üçün 26 min 792 hektar sahədə buğda, 3 min 506 hektar sahədə arpa olmaqla, ümumilikdə, 30 min 298 hektar sahədə taxıl əkini aparılmışdır. 2016-cı ilin fevral ayında əkilmiş 30 min 298 hektar taxıl sahəsinin becərilməsində istifadə etdikləri yanacaq və motor yağlarına görə torpaq mülkiyyətçilərinə dövlət büdcəsindən 1 milyon 514 min 900 manat subsidiya ödənilmişdir. Torpaq mülkiyyətçilərinə əkdikləri taxıl sahələrinə görə dövlət vəsaiti hesabına azot gübrəsinin verilməsi isə başa çatdırılmışdır. Hazırda sahələrdə gübrə səpini aparılır.

Dövlətin taxıl istehsalçılarına dəstəyi onları daha çox məhsul istehsal etməyə ruhlandırır. Bütün bunların müqabilində isə bol məhsul istehsal olunur, ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə qarşıya qoyulan vəzifələr uğurla yerinə yetirilir.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

# İdxal olunan məhsulların keyfiyyətinə nəzarət gücləndirilir

***Muxtar respublikamızda daxili bazarın qorunmasına, əhalinin keyfiyyətli idxal məhsulları ilə təmin olunmasına xüsusi diqqət yetirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər Naxçıvanın sosial-iqtisadi inkişafına, o cümlədən qida təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Fevral ayının 10-da sahibkarlarla keçirilən işgüzar görüşdə Ali Məclisin Sədri tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinə idxal olunan məhsulların keyfiyyətinə nəzarətin gücləndirilməsi, geni dəyişdirilmiş məhsulların muxtar respublikaya gətirilməsinin qarşısının alınması ilə bağlı verilmiş tapşırıqlar bu istiqamətlər üzrə gömrük orqanlarının məsuliyyətini daha da artırır.***

Gömrük orqanları tərəfindən idxal olunan məhsulların keyfiyyətinə nəzarət olunarkən mallara dair sertifikatların mövcudluğuna, onların daşınma şəraitinə, əmtəə görünüşünə, qablaşdırılmasına, meyvə-tərəvəz məhsullarının tərkibində nitritlərin miqdarına xüsusi diqqət yetirilir. Təkcə ötən il üzərində istehlak müddəti olmadığından və ya bitdiyindən, tərkibində nitratların həcmi normadan artıq olduğundan, keyfiyyəti standartlara cavab verməmədiyindən ümumi çəkisi 112 tondan artıq malın geri qaytarılması bu sahədə görülən işlərin əyani göstəricisidir.

İdxal məhsullarının tərkibi və keyfiyyət göstəriciləri Naxçıvan Gömrük Ekspertizası İdarəsinin sınaq laboratoriyasında yoxlanılır. Ötən ilin yanvar ayından rəsmi status alan laboratoriya, əsasən, ərzaq məhsullarının təyini üzrə ixtisaslaşmışdır. İdxal olunan ərzaq məhsulları sərhəd-buraxılış məntəqələrindən keçirildiyi zaman onlardan götürülmüş prob və nümunələrin təyini ölkə ərazisində qüvvədə olan standartlara, nümunənin texniki şərtnaməsinə, sanitariya-epidemioloji qaydalara və normativlərə əsasən müəyyən edilir. Nümunələrin göndərilməsi, qəbulu və nəticələr barədə məlumatlar onlayn şəkildə həyata keçirilir.

Analizlər spektrometriya, xromatoqrafiya, atom-adsorbsiya və fiziki-kimyəvi metodlarla aparılır. Sınaq laboratoriyasında quraşdırılmış cihazlar dünyanın bu sahədəki ən nüfuzlu firmalarına məxsusdur. Analizi aparılan ərzaq məhsullarına misal olaraq alkoqollu və alkoqolsuz içkiləri, ət və ət məhsullarını, dənli bitki və taxıl məhsullarını, süd və süd məhsullarını, konservləri, kənd təsərrüfatı məhsullarını, quru meyvələri, bitki və heyvan mənşəli yağları, dəniz məhsullarını, un və un məmulatlarını, qənnadıları, uşaq qidalarını göstərmək olar. Laboratoriyada yaradılmış şərait, əldə olunan təcrübə bütün növ ərzaq məhsullarının müxtəlif göstəricilər üzrə keyfiyyətinin müəyyənləşdirilməsinə imkan verir. Təkcə ötən il 5486 ton maldan 1042 adda götürülən nümunələrin analizləri aparılmış, 2454 kiloqram malın ekspertiza nəticələri normalara uyğun olmadığından muxtar respublikaya buraxılmamışdır.

Naxçıvan Gömrük Ekspertizası İdarəsi tərəfindən nəinki ölkəyə idxal olunan ərzaq məhsullarının, həmçinin sifariş əsasında yerli istehsal məhsullarının keyfiyyət göstəriciləri də yoxlanılır.

Artıq bu ilin yanvar ayından etibarən laboratoriyada geni dəyişdirilmiş məhsulların analizi aparılır. Qeyd edək ki, geni modifikasiya olunmuş məhsullara qarşı mübarizə bu gün qida sahəsində dünyanın üzləşdiyi ən böyük problemlərdən biridir. Qısaca GMO olaraq bilinən gen mühəndisliyinə ərzaq terrorizmi də deyilir. GMO müasir biotexnologiya üsulu ilə müxtəlif mənşəli canlı orqanizmlərin geninin kombinasiyası vasitəsilə əldə edilmiş istənilən canlı orqanizmdir. Bu zaman heyvan geninin bitkiyə və əksinə, bitki geninin bitkiyə, heyvan geninin heyvana köçürülməsi baş verir.

Dünyada becərilən GMO bitkiləri, əsasən, qarğıdalı, soya, pambıq, şəkər çuğunduru, yonca, kartof, düyü, pomidor və tütündür. Hazırda 120-dən artıq müxtəlif kənd təsərrüfatı bitkisinin genetik modifikasiya olunmuş analoqları vardır. Bu problemlə bağlı Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Ərzaq Təşkilatı və beynəlxalq ekoloji təşkilatlar tərəfindən həyəcan təbili çalınır. Artıq bir çox dövlətlər insan orqanizmində qarşısıalınmaz dəyişikliklər yaratdığından geni modifikasiya olunmuş məhsullara qarşı ciddi mübarizə aparır.

Ölkəmizdə geni modifikasiya edilmiş məhsulların idxalı qanunla qadağan olunur. Naxçıvan Gömrük Ekspertizası İdarəsində yaradılan şəraitin nəticəsidir ki, muxtar respublikamıza idxal olunan kənd təsərrüfatı məhsullarının genetik modifikasiyaya məruz qalmasının dəqiqliklə yoxlanması mümkündür. Əməkdaşlar genetik modifikasiyaya məruz qalmış kənd təsərrüfatı məhsulları, o cümlədən belə kənd təsərrüfatı məhsullarından hazırlanmış ərzaq məhsulları və hətta az miqdarda bu məhsullardan istifadə olunmaqla istehsal edilmiş ərzaq məhsullarında transgenləri təyin edə bilirlər.

Gömrük orqanları idxal olunan məhsulların keyfiyyətinə nəzarəti gücləndirmək və geni dəyişdirilmiş məhsulların muxtar respublikaya gətirilməsinin qarşısını almaqla muxtar respublikamızda qida təhlükəsizliyi məsələsinin həllinə bundan sonra da öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

***İqtisadi aktivliyin yüksəldilməsi məqsədilə sahibkarlara güzəştli şərtlərlə maliyyə dəstəyinin göstərilməsi öz bəhrəsini verib, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri həyata vəsiqə alıb, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı artaraq 87 faizi ötüb. Özəl bölmənin inkişafı əhalinin tələbatının yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin olunmasına da əlverişli şərait yaradıb.***

*İstehsal müəssisələri*

# *“Ləzzət Broyler”*in məhsulları paytaxt Bakı bazarına çıxarılacaq



Daxili bazarı yüksəkkeyfiyyətli yerli ərzaq məhsulları ilə təmin edən müəssisələrdən biri də 2011-ci ilin noyabr ayında yaradılmış “Ləzzət Broyler” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnib, Sahibkarlığa Kömək Fondundan 2012-ci ilin may ayında 400 min manat, dekabr ayında isə 650 min manat dövlət maliyyə dəstəyi göstərilib. Ətlik istiqamətli quşçuluq təsərrüfatının yaradılması üçün Babək rayonunun Kərimbəyli kəndində 20 min 674 kvadratmetr, kəsim və paketləmə istehsalı sahəsi üçün isə Hacıvar kəndində 5013 kvadratmetr torpaq sahəsi ayrılıb. Quşçuluq təsərrüfatında quşların bəslənilməsi üçün hər biri 15 min baş quş tutumuna malik 5 bina inşa olunub. Həmin binalarda Türkiyənin “Tavsan” firmasının istehsalı olan kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş müasir texnoloji avadanlıqlar quraşdırılıb, quşların yemlənməsi və suvarılması üçün tam avtomatlaşdırılmış xətt istifadəyə verilib, isitmə və soyutma sistemi yaradılıb. Onu da qeyd edək ki, quşçuluq təsərrüfatları əvvəllər qarışıq qüvvəli yemi və inkubator cücələrini xaricdən alıb əlavə daşınma xərci çəkir, vaxt itkisi ilə üzləşirdilərsə, artıq muxtar respublikamızda yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması ilə bu problem aradan qaldırılıb. Quşların bəslənməsi üçün qarışıq qüvvəli yem “Gəmiqaya Holdinq” Şirkətlər İttifaqının qarışıq qüvvəli yem istehsalı müəssisəsindən, inkubator cücələri isə “Araz-3” Məhdud Məsuliyyətli Cəmiyyətindən alınır. Quşlar müəyyən olunmuş temperaturda 45-50 gün müddətində qapalı şəraitdə bəslənilir, onlara baytar həkim tərəfindən nəzarət edilir.

Quşların kəsimi və paketlənməsi üçün də əlverişli şərait yaradılıb, Hacıvar kəndində ayrılmış ərazidə istehsal sahələri, müxtəlif temperatura malik ayrı-ayrı soyuducu anbarlar, iş otaqları və yeməkxana tikilib istifadəyə verilib. İstehsal sahəsində Türkiyənin “Alberk” firmasından alınmış, istehsal gücü saatda 1500 baş quş olan tam avtomatlaşdırılmış xətt, soyuducu anbarlarda isə Türkiyə və Almaniya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılıb. Kərimbəyli kəndindəki quşçuluq təsərrüfatının tikintisinə 569 min 883 manat, avadanlıqların alınmasına 174 min 861 manat, Hacıvar kəndində fəaliyyət göstərən kəsim və paketləmə istehsalı sahəsinin tikintisinə 543 min 568 manat, avadanlıqların alınmasına 675 min manat vəsait sərf olunub. Ümumilikdə, müəssisənin tikintisinə və texnoloji avadanlıqların alınmasına 1 milyon 963 min manatdan çox vəsait sərf olunub ki, bunun da 1 milyon 50 min manatı Sahibkarlığa Kömək Fondundan, 913 min manatı isə daxili imkanlar hesabına ödənilib.

Sanitar-gigiyenik qaydalara və texnoloji proseslərə ciddi əməl olunan müəssisədə quşların bəslənilməsindən tutmuş satışa çıxarılmasınadək bütün texniki normalara ciddi riayət olunur. Quşların kəsilməsi əl ilə aparılır, 6 mərhələdə təmizləmədən sonra 14 çeşiddə quş əti müxtəlif çəkilərdə “Ləzzət Broyler” tanınma nişanı vurulmuş xüsusi paketlərə yığılır. Hər bir paketin üzərində toyuq ətinin çəkisi, istehsal tarixi, saxlanma şəraiti və istifadə müddəti göstərilir. Sonrakı mərhələdə isə məhsul hər birinin tutumu 5 ton olan 2 ədəd xüsusi soyuducuda 8 saat müddətində mənfi 35 dərəcə temperaturda dondurulur və hər birinin tutumu 40 ton olan 3 ədəd soyuducuda 18 dərəcə temperaturda saxlanılır. Buradan isə soyuducu kameralarla təmin olunmuş xüsusi avtomaşınlarla sifarişə uyğun olaraq ayrı-ayrı ticarət obyektlərinə göndərilir.

“Ləzzət Broyler” Məhdud Məsuliyyəti Cəmiyyəti quş əti istehsalına görə bazarda özünəməxsus yer tutub, rəqabətqabiliyyətli müəssisəyə çevrilib. Daxili bazarın tələbatından artıq istehsal olunan quş ətinin paytaxt Bakı bazarında və ölkəmizin digər regionlarında satışa çıxarılması nəzərdə tutulur.

“Ləzzət Broyler” MMC-nin fəaliyyətə başlaması daxili bazarı yüksəkkeyfiyyətli quş əti ilə təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayıb. Hazırda müəssisədə 38 nəfər çalışır ki, onlar da yüksək əməkhaqqı, xüsusi geyim formaları və servis xidməti ilə təmin olunublar.

**Kərəm HƏSƏNOV**

# Milli Teatr Günü qeyd olunub

*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Milli Teatr Günü münasibətilə tədbir keçirilib. Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında Milli Teatr Gününün təsis edilməsi haqqında” 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən, hər il martın 10-u ölkəmizdə “Milli Teatr Günü” kimi qeyd edilir.*





Vurğulanıb ki, Şərqdə ilk peşəkar teatrın Azərbaycanda yaranması mədəniyyət tariximizin parlaq səhifəsidir. Əsası 1873-cü ilin mart ayında Mirzə Fətəli Axundzadənin “Lənkəran xanının vəziri” tamaşası ilə qoyulmuş Azərbaycan teatrının şərəfli tarixi vardır.

Teatra, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan, onlara, sözün əsl mənasında, hamilik edən ümummilli lider Heydər Əliyevin səyi nəticəsində ötən əsrin 70-ci illərində milli teatr sənətimiz sürətli inkişaf yoluna qədəm qoyub.

“Azərbaycanda teatrların diqqət və qayğı ilə əhatə olunması siyasəti ölkə Prezidenti cənab İlham Əliyevin də diqqət mərkəzindədir. Bu gün teatr binaları yenidən qurulur, təmir edilir, bu sahədə ardıcıl islahatlar həyata keçirilir”, – deyən Natəvan Qədimova diqqətə çatdırıb ki, teatrlarımıza diqqət və qayğını muxtar respublikamızda fəaliyyət göstərən mədəniyyət ocaqlarının timsalında da aydın görmək mümkündür.

Sonra aktyorlar “Mən aktyoram” mahnısının sədaları altında canlandıracaqları obrazların geyimində səhnəyə çıxıblar.

Aparıcı Azərbaycan teatrının keçdiyi inkişaf yolundan söhbət açaraq M.F.Axundzadənin “Müsyö Jordan və dərviş Məstəli şah” əsəri ilə Naxçıvan teatrının əsasının qoyulduğunu bildirib. Teatrın aktyorlarının ifasında həmin komediyadan bir səhnə göstərilib.

Aparıcı Naxçıvan teatrının keçmişindən və bu günündən danışaraq qeyd edib ki, teatrın bugünkü yaradıcı kollektivi sənət ənənələrini uğurla davam etdirir. Teatrın son illərdə hazırladığı “Yəhya bəy Dilqəm” tamaşasından nümayiş etdirilən səhnə də maraqla qarşılanıb.

Tədbirdə aparıcı qədim diyarımızda fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının uğurlarından da söhbət açıb və bildirib ki, bu sənət ocağı teatrsevərlərin görüşünə marionet kuklalarla hazırladığı “Arşın mal alan” tamaşasından bir səhnə ilə gəlib.

Naxçıvanda fəaliyyət göstərən ən gənc teatrlardan birinin isə 2006-cı ildə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrının olduğu qeyd edilib. “Danışan kukla” tamaşasından bir hissə marağa səbəb olub.

Tədbirdə Naxçıvan Dövlət Musiqili Dram Teatrının hazırladığı Əli Əmirlinin “Varlı qadın” komediyasından da bir parça göstərilib.

**Əli RZAYEV**

# Tanınmış rəssam Məmməd Qasımovun həyat və yaradıcılığına həsr olunmuş konfrans-sərgi

***Martın 10-da Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda tanınmış teatr rəssamı Məmməd Qasımovun həyat və yaradıcılığına həsr olunmuş konfrans-sərgi keçirilib.***

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva rəssam Məmməd Qasımovun 90 illik yubileyinin Milli Teatr Günündə keçirilməsinin təsadüfi olmadığını bildirib. Kökü yüzilliklərə söykənən mədəniyyətimiz, daim inkişaf edən incəsənətimiz, müxtəlif sənət növlərinin hər biri ayrı-ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq, birlikdə vəhdət təşkil edir və Azərbaycan incəsənəti, mədəniyyəti haqqında tam təsəvvür yaratmağa geniş imkan verir. Azərbaycan incəsənəti ölkəmizin təbiəti kimi rəngarəng, dolğun və zəngindir. Məmməd Qasımov da bu zənginliyə böyük töhfə verən rəssamlarımızdan biri idi.



Ülviyyə Həmzəyeva qeyd edib ki, tanınmış teatr rəssamı 1952-ci ildən ömrünün son günlərinədək – tam 35 il fasiləsiz olaraq Naxçıvan teatrının baş rəssamı kimi məhsuldar və səmərəli fəaliyyət göstərib. Bu illər ərzində o, Naxçıvan teatrında 93, Gəncə Dövlət Dram Teatrında 1, İrəvan Dövlət Azərbaycan Dram Teatrında 3 tamaşanın quruluşçu rəssamı olub. 1970-ci ildə SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul olunan Məmməd Qasımov yenicə yaradılan Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatının ilk sədri seçilib. Bu təşkilatın qurulmasında və formalaşmasında onun böyük xidmətləri olub.

“Məmməd Qasımov portret, mənzərə, qrafika və plakat janrında da dəyərli əsərlər yaradıb, bir sıra karikaturaları dəfələrlə “Kirpi” jurnalında və müxtəlif qəzet səhifələrində dərc olunub”, – deyən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri bildirib ki, vaxtilə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin və Bakı Şəhər Sovetinin Fəxri fərmanları, “Əməkdə fərqlənməyə görə” medalı, SSRİ Mədəniyyət Nazirliyinin “Əlaçı mədəniyyət işçisi” döş nişanı ilə təltif olunan Məmməd Qasımov 1967-ci ildə muxtar respublikanın “Əməkdar incəsənət xadimi” fəxri adına layiq görülüb. O, dəfələrlə Azərbaycan rəssamlarının və teatr xadimlərinin qurultayına nümayəndə seçilib. İstedadlı rəssam 1987-ci il yanvar ayının 28-də Naxçıvan şəhərində vəfat edib.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Azərbaycan Respublikasının Xalq artisti Kamran Quliyev, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əli Səfərli, rəssam Həmzə Sadiqov və tanınmış rəssamın oğlu, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov çıxış edərək Məmməd Qasımovun həyat və yaradıcılığından söhbət açıblar, onunla bağlı xoş xatirələrini iştirakçılarla bölüşüblər.

Sonra konfrans-sərginin iştirakçıları Məmməd Qasımovun həyat və yaradıcılığına həsr olunmuş filmə baxıblar.

Sonda sərgiyə baxış olub. Sərgi 5 gün davam edəcək.

**Rauf ƏLİYEV**

*Naxçıvan Dövlət Universitetində Frankofoniya bayramı qeyd olunub. Tədbir Azərbaycan və Fransanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.*

# Frankofoniya bayramı qeyd edilib



Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirdə çıxış edərək xarici dillərin mükəmməl tədrisinin dünyaya inteqrasiya, ölkələrarası siyasi, elmi, mədəni əlaqələrin inkişafındakı rolundan, fransız dilinin əsas beynəlxalq dillərdən biri olmasından danışıb. XIX əsrin əvvəllərindən təməli qoyulan Azərbaycan-Fransa əlaqələrinin bugünkü inkişafından bəhs edən Saleh Məhərrəmov vurğulayıb ki, bu istiqamətdə universitetdə görülən işlər elm, təhsil sahəsində ölkələrarası əməkdaşlığı möhkəmləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Fransız dili müəllimliyi ixtisasının IV kurs tələbəsi Rüxsarə Qurbanova Frankofoniyanın tarixi haqqında məlumat verərək bildirib ki, fransız dilində danışanların bayramı olan Frankofoniya hər il dünyanın 53 ölkəsində keçirilir. Fransız dilinin, mədəniyyətinin təbliği məqsədi daşıyan bu bayramı 2015-ci ildə 284 milyon nəfər qeyd edib. 2050-ci ildə dünyanın 5 qitəsində 700 milyon insan bu bayrama qatılacaq. Naxçıvan Dövlət Universitetində Frankofoniya bayramının qeyd olunması 1998-ci ildən etibarən ənənə halını alıb. Bu işdə universitetin Roman-german dilləri kafedrasının böyük əməyi var.

Tədbirdə Fransız dili müəllimliyi ixtisasında təhsil alan tələbələrin ifasında fransız dilində şeir və mahnılar səsləndirilib. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadənin “Sərgüzəşti-mərdi-xəsis” (“Hacı Qara”) komediyasından fransız dilində təqdim olunan səhnələr alqışlarla qarşılanıb.

**Mehriban SULTAN**

# Eynəli bəy Sultanovun 150 illik yubileyi münasibətilə tədbir

***Eynəli bəy Sultanov adına Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbdə keçirilən tədbiri giriş sözü ilə məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Aygün Hüseynova açaraq bildirib ki, görkəmli yazıçı-publisist və pedaqoq Eynəli bəy Sultanovun çoxşaxəli fəaliyyəti Azərbaycan ictimai fikir tarixində mühüm mərhələ təşkil edir.***



Qeyd olunub ki, 1866-cı il mayın 5-də Naxçıvan şəhərində anadan olan Eynəli bəy Sultanov ilk təhsilini Naxçıvan qəza məktəbində alıb. 1880-1886-cı illərdə “İrəvan kişi gimnaziyası”nda təhsilini davam etdirən gənc Eynəli öz bilik səviyyəsini xeyli zənginləşdirib, Avropa ədəbiyyatını və Qərb maarifçiliyini dərindən mənimsəyib. 1886-cı ildə gimnaziyanın yeddinci sinfindən çıxdıqdan sonra yüksək hazırlığı, mənəvi yetkinliyi, ədəbi istedadı nəzərə alınaraq məktəbin pedaqoji şurasının qərarı ilə ona şəhər ibtidai məktəblərində müəllimlik etmək hüququ verilib. O, hələ gimnaziyada oxuyarkən Naxçıvanda maarifçi mühitin formalaşmasında yaxından iştirak edib, 1882-1883-cü illərdə burada “Ziyalı məclisi”, “Müsəlman dram incəsənəti cəmiyyəti” kimi ədəbi-mədəni mərkəzlər yaradıb. Bu mərkəzlərdə dövrün ictimai-siyasi məsələləri tez-tez müzakirə edilir, fanatizmə qarşı mübarizənin yolları araşdırılır, məktəblər, kitabxanalar açmaq qərara alınır və digər mədəni tədbirlər həyata keçirilirdi.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Eynəli bəy Sultanovun 150 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 15 fevral tarixli Sərəncamı görkəmli mütəfəkkirin həyat və fəaliyyətinin yenidən tədqiq olunması ilə yanaşı, həm də ədəbiyyatımızın, mədəniyyətimizin, ümumilikdə, ictimai fikir tariximizin öyrənilməsinə xidmət edən mühüm dövlət sənədidir.

Tədbirdə məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Nüşabə Muradova “Eynəli bəy Sultanov irsinin tədqiqat tarixindən”, həmin məktəbin X sinif şagirdi İnci Babayeva “Hüseyn Cavid və Eynəli bəy Sultanov”, Azərbaycan dili və ədəbiyyatı müəllimi Sevda Əsgərova “Eynəli bəy Sultanov və naxçıvanlı müasirləri” mövzularında çıxışlar ediblər.

**Nərgiz İSMAYILOVA**

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin birgə təşkilatçılığı ilə bu ilin aprel-noyabr aylarında “Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi–2016” keçiriləcəkdir.*

# Xalq mahnı və təsniflərinin ifaçılıq müsabiqəsi keçirilir

Müsabiqənin məqsədi milli mədəniyyətimizin və incəsənətimizin təbliğ edilməsi, xalq mahnı və təsniflərinin ifaçılığı üzrə istedadlı şəxslərin üzə çıxarılması və yaradıcılıq potensialının düzgün istiqamətləndirilməsidir. Qeyd edək ki, müsabiqə üçün yaş məhdudiyyəti yoxdur və peşəkar ifaçıların müsabiqədə iştirakına icazə verilmir.

Müsabiqənin əsas turu ayda bir dəfə olmaqla, 7 mərhələdə davam edəcəkdir. Yekun konserti noyabr ayında Naxçıvan şəhərində təşkil olunacaqdır. Qaliblər yekun konsertində mükafatlandırılacaqlar. Son məlumata görə, muxtar respublikanın bütün rayonları daxil olmaqla müsabiqəyə 100-dən çox iştirakçı qatılmışdır.

Dünən Naxçıvan Dövlət Filarmoniyasında ilk seçim turuna start verilmişdir. Məlumat üçün bildirək ki, seçim turunda fərqlənənlər müsabiqədə iştirak edəcəklər. İlk seçim turu Naxçıvan Dövlət Filarmoniyasının zalında iki gün davam edəcəkdir.

# “Soyqırım” filmi nümayiş etdirilib



Dünən Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun, Heydər Əliyev adına Hərbi Liseyin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının “Soyqırım” adlı sənədli filmə baxışı təşkil olunub. Filmin göstərilməsində məqsəd gənclərin və kursantların Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması, onların dünyagörüşünün artırılması idi. Filmdə müəyyən dövrlərdə azərbaycanlıların başına gətirilən müsibətlərdən, xalqımıza qarşı törədilmiş soyqırımlardan bəhs edilir.

**Xəbərlər şöbəsi**

**İtmişdir**

İsmayılzadə Vüsal Xəlil oğlunun adına verilmiş müddətdən artıq hərbi qulluqçuya məxsus 0012766 nömrəli şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 201